Rusiya və ABŞ arasında mümkün nüvə münaqişəsi ssenarilərini müzakirə edən Popular Mechanics jurnalı yazıb ki, hipersəsli Avangardların ilk zərbəsi Amerikanın erkən xəbərdarlıq sisteminin elementlərini məhv edə bilər. Yerüstü ICBM-lər daha sonra ABŞ-ın raket buraxılış sistemlərini, həmçinin bombardmançı və sualtı bazalarını vuracaq. İndiki mərhələdə Moskva Vaşinqtonla danışıqlara başlaya bilər. "Rusiya liderləri bundan sonra xəbərdarlıq edəcəklər ki, hər hansı cavab cəhdi ölkənin bütün nüvə silahlarını işə salacaq, milyonlarla insanın ölümünə və ABŞ-ın hərbi, siyasi və iqtisadi qurum kimi məhvinə səbəb olacaq", - nəşr qeyd edib.

Nyu Cersidəki Rutgers Universitetinin alimləri hesab edirlər ki, Rusiya və ABŞ arasında nüvə müharibəsi beş milyard insanın ölümünə səbəb ola bilər. Eyni zamanda, dünya əhalisinin əksəriyyəti iqlim dəyişikliyi səbəbindən aclığın qurbanına çevriləcək. Bu cür proqnozlara baxmayaraq, düşmənin mövqelərini zəiflətmək ümidi ilə dünyada gərginlik artmaqda davam edir. Bununla belə, növbəti Kuba Raket Böhranının o qədər də sülhlə bitməyəcəyi ehtimalı qalır.

**V.VƏLİYEV**

# 2025-ci il üçün sosial müdafiə xərcləri 10 faiz artırılacaq

## Azərbaycanda 2025-ci il üçün yaşayış minimumu və 2025-ci il üçün ehtiyac meyarının həddi bərabər olmaqla ölkə üzrə 285 manat təşkil edəcək

***Noyabrın 28-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. İclası açan komitə sədri Musa Quliyev bildirib ki, gündəliyə Büdcə zərfində olan 5 qanun layihəsi daxildir. Bunlar "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında", "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə ikinci oxunuşda olan qanun layihələridir.***

Musa Quliyev Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə görülən işlər, bu sahənin həmişə diqqət mərkəzində saxlanılması, vətəndaşların sosial rifahının yüksəldilməsi üçün həyata keçirilən tədbirlər və icra edilən dövlət proqramları barədə danışıb. O, bildirib ki, gələn ilin dövlət büdcəsində sosial xərclər 17 milyard manat nəzərdə tutulur ki, bu da Dövlət büdcəsinin 41 faizi deməkdir. Qeyd edilib ki, son 5 ildə sosial sahədə aparılmış dərin islahatlar nəticəsində böyük uğurlar əldə edilib. Ölkə başçısının təşəbbüsü və rəhbərliyi ilə 4 böyük sosial islahatlar zərfi qəbul edilib. Bu sosial islahatlar zərfinin illik xərci 7 milyard manat təşkil edir və 4 milyon vətəndaşımız hər il bu islahatlar zərfindən bəhrələnir.

Musa Quliyev qeyd edib ki, DSMF-nin büdcəsi imkan verir ki, əmək pensiyalarının orta aylıq məbləği gələn ildə 535 manata, yaşa görə pensiyanın orta aylıq məbləği isə 571 manata çatdırılsın. Büdcədə sosial müavinətlər üçün 198 milyon manat ayrılıb ki, bu da cari ildəkindən çoxdur. Komitə sədri bildirib ki, 2025-ci il üzrə Dövlət sosial müdafiə fondunun büdcəsi artaraq 7,7 milyard manat proqnozlaşdırılır ki, bu, cari ilin büdcəsinə nisbətən 10,5% çoxdur.

Sonra "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, 2025-ci ildə fondun büdcəsi 261 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 9,5% çoxdur.

Komitə sədri bildirib ki, Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu və 2025-ci il üçün ehtiyac meyarının həddi bərabər olmaqla ölkə üzrə 285 manat təşkil edəcək. Komitə sədri çıxışında Azərbaycanda özünəməşğulluq proqramlarının uğurla icrası, yeni iş yerlərinin açılması, həyata keçirilən aktiv məşğulluq tədbirləri, əhalinin pensiya təminatı barədə də fikirlərini açıqlayıb.



Sonra Musa Quliyev gündəliyin beşinci məsələsi olan "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin ikinci oxunuşu barədə məlumat verib.

O, bildirib ki, qanun layihəsi Vergi Məcəlləsinə uyğunlaşdırma məqsədilə hazırlanıb. Belə ki, Vergi Məcəlləsinin 150.6-cı maddəsinə əsasən, vergi ödəyiciləri Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə, yaxud vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə həmin Məcəllədə göstərilən ümumi müddətlərdən gec olmamaq şərtilə 30 gün müddətində ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməyə borcludurlar.

Sonra iclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin mərkəzində Azərbaycan Respublikasının vətəndaşı dayanır. Əhalinin məşğulluğu, aztəminatlı ailələr, şəhid ailələri, müharibə veteranları hər



zaman dövlətimizin diqqət mərkəzində olub. Eyni zamanda, artıq dövlət başçısı tərəfindən 5-ci sosial islahat zərfi barədə anons verilib. Büdcədə bu islahatların həyata keçirilməsi üçün zəruri maliyyə vəsaiti nəzərdə tutulub.

Nazir müavini qeyd edib ki, əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində işlər davam etdirilir. Ötən müddətdə əmək müqavilələrinin sayı ölkə üzrə 47 faiz artıb. Bu gün tam əminliklə deyə bilərik ki, ölkədə əməkhaqqı fondu 3 dəfəyədək artıb. Minimum əməkhaqqı 2.7 dəfə, orta aylıq əməkhaqqı 82 faiz yüksəlib. Sosial ödənişlərlə bağlı islahatlar da ardıcıl xarakter daşıyır. Bununla yanaşı, əmək pensiyaları sahəsində də islahatlar həyata keçirilib. Minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, yaşa görə orta aylıq pensiya 2,3 dəfə artıb.

Nazir müavini ünvanlı dövlət sosial yardımı, əlilliyin təyinatı, məşğulluq, "DOST" modelinin tətbiqi, xidmətlərin elektronlaşdırılması, işsiz şəxslərin özünəməşğulluğu, şəhid ailələrinin, müharibə əlillərinin hüquqlarının təminatı, mənzillərin, avtomobillərin paylanılması və digər istiqamətlərdə görülmüş işlərdən danışıb.

Anar Əliyev qeyd edib ki, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2025-ci il üzrə 7,7 milyard manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilə nisbətən 727 milyon manat (və ya 10,5%) çoxdur. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi isə 260,7 milyon manat nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 9,5% çoxdur.

Nazir müavini bildirib ki, bu gün əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün hökumət tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir.

İclasda çıxış edən Hesablama Palatasının auditoru Vəfa Mütəllimova diqqətə çatdırıb ki, Palatanın qənaətinə görə büdcədə nəzərdə tutulmuş tədbirlər ölkə başçısının müəyyən etdiyi hədəflərin əldə edilməsinə istiqamətlənib. Büdcədə nəzərdə tutulmuş vəsait bu hədəflərə nail olunması üçün kifayət qədər maliyyə ehtiyatı yaradır.

Sonra məsələlərin müzakirəsi zamanı çıxış edən komitə üzvləri Səttar Möhbalıyev, Vüqar Bayramov, Sevinc Hüseynova büdcə zərfinə daxil olan bu qanun layihələri barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər. Nazir müavini Anar Əliyev qaldırılan məsələlərə münasibət bildirdikdən sonra gündəlikdəki 5 məsələnin hamısı ikinci oxunuşda parlamentin plenar iclasında müzakirəyə tövsiyə olunub.

İclasda Milli Məclisin deputatları Jalə Əliyeva, Bədəl Bədəlov, Göydəniz Qəhrəmanov, Nigar Məmmədova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

***Elçin Bayramlı***
***Parlament müxbiri***

# Peşə təhsilinə maraq artıb, ya azalıb?

## *EKSPERT AYDINLIQ GƏTİRDİ*

"Ölkəmizdə peşə təhsilinin inkişafı prioritet olaraq qəbul edilib. Dövlət başçısı İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla ölkəmizdə texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı qəbul olunub. Cənab Prezidentin həyata keçirdiyi siyasət nəticəsində bütövlükdə iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş islahatlar, əməkbazarı üçün rəqabətə davamlı peşəkar kadr hazırlığının formalaşdırılması və yeni yaradılmış iqtisadi sektorlar üzrə əmək bazarının tələbləri nəzərə alınmaqla peşə təhsilinə daha çox diqqət ayrılması zəruri hal almışdır". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib.

O bildirib ki, Elm və Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsili üzrə Dövlət Agentliyi sözügedən istiqamətdəki işləri yüksək səviyyədə həyata keçirir: "Agentliyin yaradılması da cənab Prezidentin müvafiq



fərmanı ilə reallaşmışdır. Eyni zamanda burada qabaqcıl təcrübənin öyrənilməsi, ölkəmiz üçün stratejik əhəmiyyət kəsb edən peşə istiqamətləri üzrə kadr hazırlığının həyata keçirilməsi məsələləri hər zaman diqqətdə saxlanılıb.

Dövlət başçısının 2016-cı ildə



imzalanan müvafiq fərmanı ilə Azərbaycan Respublikasında peşə təhsili və təlimin inkişafına dair strateji yol xəritəsi adlanır və burada peşə təhsilinin istiqamətlərini şərtləndirəcək strateji baxış dövrlər üzrə konkret məqsədləri hədəfləyirdi. Bu yol xəritəsində qarşıya qoyulmuş hədəflər üzrə görülən işlər davamlı peşə təhsilinin uğurlu gələcəyindən xəbər verir. Ümumilikdə normativ baza yüksək səviyyədədir. Təkcə paytaxtda deyil, regionlarda da müasir peşə təhsili məktəbləri tikilərək istifadəyə verilir. Bütün bunlar kifayət qədər maliyyə tutumlu işlərdir. Həmin müəssisələrdə çalışacaq kadr hazırlığına böyük önəm verilir. Buna görə də peşə təhsilinin yüksək standartlar və peşəkar səviyyədə qurulması, həm də əhali arasında peşə təhsilinə marağı xeyli dərəcədə artırmışdır. Bu da peşə təhsili müəssisələrinə qəbul üçün müraciət edənlərin sayında özünü göstərir".

***Səbinə Hüseynli***

# “Bu, Azərbaycan xalqı üçün qürurvericidir”

“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hakimiyyətdə olduğu bütün illərdə Azərbaycan-Amerika münasibətlərinin yaxşılaşdırılmasına və əlaqələrin möhkəmləndirilməsinə önəm vermişdir. Bu dövrün tələbindən, həm də Amerika kimi böyük bir dövlətin beynəlxalq münasibətlərdə Azərbaycanla həmrəy olmasının nümayiş etdirilməsindən irəli gəlir. Böyük bir dövlətin Azərbaycan həqiqətlərini dəstəkləməsi istər siyasi-iqtisadi beynəlxalq məsələlərdə Azərbaycanın haqlı mövqeyindən çıxış etməsi ölkəmizin bugünü, eləcə də gələcəyi üçün çox zəruri hesab edilmişdir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Tahir Rzayev deyib.





Tahir Rzayev sözlərinə belə davam edib: ”Donald Trampın hakimiyyəti dövründə bu münasibətlər sağlam olmuş və demək olar ki, bir çox sahələrdə əlaqələr yaxşılığa doğru inkişaf etmişdir. Lakin çox təəssüflər olsun ki, Baydenin hakimiyyəti dövründə ermənipərəst qüvvələr Azərbaycan-Amerika münasibətlərində müəyyən ziddiyyətlər yaratmış və Amerika Azərbaycana qarşı müəyyən məsələlərdə aqressiv mövqe nümayiş etdirmişdir. Trampın yenidən prezident seçilməsi əlbəttə ki Azərbaycan üçün müsbət mövqe yarada bilər və bu baxımdan da Azərbaycan Prezidenti cənab İlham Əliyev Amerika dövləti ilə münasibətlərin yaxşılaşdırılması üçün öz təşəbbüslərini ortaya qoyur. İlham Əliyevin Trampa telefon zəngi də məhz bu məqsədə xidmət edir.

Cənab İlham Əliyev Trampa təbrikində Azərbaycan-Amerika münasibətlərini ön plana çəkmiş və Trampın dövründə bu münasibətlərin yaxşı müsbət məcrada olmasına diqqəti cəlb etmişdir. Tramp öz hakimiyyəti dövründə bir çox müsbət gedişləri, xüsusilə dünyada sülhün bərpa edilməsi, müharibələrin dayandırılması, cinsi azlıqlara qarşı müəyyən fikirlərin söylənilməsi, cəmiyyəti sarsıdan neqativ halların aradan qaldırılması barədə fikirləri ilə gündəmdə olmuş və prezident seçkiləri ərəfəsində də o qeyd etmişdir ki, dünyada baş verən ciddi problemlərə daimi diqqət yetirəcək, xüsusilə təhlükəsiz dünya uğrunda mübarizədə sülhsevər bəşəriyyətə, rəhbərlərə öz dəstəyini göstərəcəkdir. Bu amillər əlbəttə ki bəşəriyyət üçün çox vacibdir. Çünki güclü dövlət olmaqdan cəmiyyəti inkişafa aparmaqdan ötrü güclü lider lazımdır. Bu liderlik, bu anlayış Prezident İlham Əliyevin şəxsiyyətində, əməllərində, onun torpağa, vətənə, xalqa məhəbbətində özünün aydın ifadəsini tapmışdır. Güclü dövlət konsepsiyası məhz bugün İlham Əliyev kimi Prezidentə xasdır və Azərbaycanın son illər əldə etdiyi uğurlarda xüsusilə tarixi qələbəmizdə özünü aydın göstərir.

Bugün cənab İlham Əliyev bəşəri dəyərlərə sadiqliyini, təhlükəsiz dünya uğrunda mübarizəsini öz əməlləri ilə sübut edir. İstər 44 günlük müharibə, istər 23 saatlıq antiterror tədbirləri, eləcə də sonrakı dövrlərdə cənab Prezidentimizin sülh çağırışları, Ermənistanı sülhə dəvət etməsi, bəşəriyyəti müharibələrdən qurtarmaq çağırışları bunu deməyə əsas verir. Bugün Prezidentimiz dünyada baş verən çox ciddi problemlerin aradan qaldırılması uğrunda bir mübariz kimi özünün təşəbbüskarlığı və təşkilatçılığı ilə seçilir.

COP29 kimi beynəlxalq əhəmiyyətli bir tədbirin Azərbaycanda keçirilməsi və bu tədbirin yüksək səviyyədə təşkili göstərir ki, Azərbaycan ən mötəbər tədbirlərə ev sahibliyi etməyə və onu yüksək səviyyədə keçirməyə qadirdir. Əlbəttə ki bu Azərbaycanın iqtisadi göstəricilərinin nəticəsi olmaqla bərabər, həm də cənab İlham Əliyevin böyük təşkilatçılıq bacarığının bir nümunəsidir. Belə tədbirlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu gücləndirir və güclü lider anlayışının təsirini və mahiyyətini bir daha dəyərləndirir.

İlham Əliyevin xarici dövlətlərin rəhbərləri ilə münasibətləri, xüsusilə türk dövlətləri təşkilatlarının rəhbərləri ilə son görüşləri, imzalanmış müqavilələr, mühüm lahiyələr deməyə əsas verir ki, dünyanı sülhsevər liderlər bəlalardan qurtara bilər və bəşəriyyət üçün xoşbəxt həyat bəxş edə bilərlər. Bugün Azərbaycan Prezidenti məhz bu yol uğrunda mübarizə aparır və onun Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampa zəng etməsi, Türk Dövlətləri Təşkilatının rəhbərləri ilə müntəzəm görüşləri, eləcə də bir çox dövlətlərin rəhbərlərinin Bakıya dəvət edilməsi xarici səfərlər əlbəttə ki Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsinə, əməkdaşlığının genişləndirilməsinə, sülhün təmin edilməsinə yönəldilmişdir. Cənab İlham Əliyev bugün dünyada ən uzaqgörən bir siyasətçi olmaqdan bərabər həm də dünyanı bəlalardan qurtarmaq uğrunda mübarizə aparan bir dövlət rəhbəri, lider kimi tanınır. Bu Azərbaycan xalqı üçün qürurvericidir və sözsüz ki dövlətimizin beynəlxalq aləmdə əməkdaşlığa böyük önəm verməsi dövlət rəhbərləri ilə münasibətləri Azərbaycan xalqının xoşbəxtliyi, gələcək inkişafı üçün çox vacib və önəmlidir”.

***Ayşən Vəli***

## 500 xarici QHT COP29-da ”Baku dönüşü” ilə əlaqədar birgə bəyanat yayıb

Noyabrın 28-də COP29 QHT Koalisiyası ”Baku dönüşü” ilə əlaqədar bəyanat yayıb. SİA Bəyanatı təqdim edir: ”100-dən çox ölkədən 500-ə yaxın vətəndaş cəmiyyəti təsisatını özündə birləşdirən COP29 QHT Koalisiyası COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətini təbrik edir, Azərbaycanın COP29 Sədrliyi ilə yeni iqlim maliyyəsinin müəyyənləşdirilməsi, Paris Sazişinin 6-cı maddəsinin işə salınması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması kimi vacib əhəmiyyət daşıyan qərarların qəbul olunmasını mühüm irəliləyiş hesab edir.

COP29 QHT Koalisiyası üzvlərinin 84 faizi ən az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin vətəndaş cəmiyyətini təmsil edir. Təbii ki, yeni iqlim maliyyəsi ilə bağlı sənəddə əksini tapmış məbləğin daha yüksək olmasını istəyərdik. Lakin biz müxtəlif rəyləri olan 198 tərəfin iştirakı ilə verilən bu ümumi qərarın hansı çətinliklər və gərgin müzakirələr hesabına ərsəyə gəldiyini dərk edirik. Hesab edirik ki, bu razılığın əldə olunması kollektiv səylərin nəticəsidir və Bakı üçün tarixi bir andır. Əminik ki, sənəddə maliyyə artımı ilə bağlı yer alan çağırış COP prosesində gələcək danışıqların mühüm istinad nöqtəsi olacaq.

Biz post-COP29 dövründə də iqlim fəaliyyətinin gücləndirilməsi istiqamətində fəal iş aparacaq, COP29 mirasından bəhrələnəcək, bu istiqamətdə strateji xətti davam etdirmək üçün səylərimizi əsirgəməyəcəyik”.

Xatırladaq ki, COP29 QHT Koalisiyası bu ilin yayında Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılıb. COP29 dövründə Koalisiyaya qoşulanların sayı xeyli artıb, onların bir hissəsi COP-da xüsusi müşahidəçiliyi olan təşkilatlardır. Azərbaycan COP29-da iştirak imkanı olan və bu imkana malik olmayan Qlobal Cənub regionu üzrə QHT-lər üçün bu Koalisiya vasitəsilə inklüziv mühit formalaşdırıb. COP29 QHT Koalisiyası müntəzəm əsasda hibrid görüşlər keçirir. Bəyanatdan da aydın görünür ki, Koalisiya post-COP29 dövründə də fəal olacaq.

Ümumiyyətlə, son vaxtlar Azərbaycan QHT-lərinin təşəbbüslərinə xarici QHT-lər tərəfindən güclü dəstəyin verilməsi müşahidə edilir. 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə beynəlxalq konfransı keçirilib. Beynəlxalq konfransın yekununda Qoşulmama Hərəkatı ölkələrini təmsil edən QHT-lər Cənub-Cənub əməkdaşlığı vasitəsilə iqlim fəaliyyətinin inkişafında QHT-lərin roluna dair birgə bəyanat mətnini razılaşdırıb. COP29-da təmsil olunan vətəndaş cəmiyyəti üzvlərinə açıq olan bəyanata 137 ölkədən 1023 QHT təmsilçisi, ictimai fəal imza atıb. Qeyd edək ki, dünya ölkələrinin 71 faizini əhatə edən regionlardan vətəndaş cəmiyyəti təsisatlarının Azərbaycan QHT-lərinin təşəbbüsünə dəstək ifadə etməsi ölkənin QHT tarixində ilk dəfə baş verib”.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bildirib ki, Azərbaycan dövlətinin apardığı siyasət Qlobal Cənubda böyük rəğbət və hörmətlə qarşılanır, ölkəmiz getdikcə Qlobal Cənubun güclü səsinə çevrilir. Hesab edirik ki, Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtı çatıb.

## Hansı hallarda xurma yemək təhlükəlidir?

### EKSPERT AYDINLIQ GƏTİRDİ

“Xurma insan orqanizmi üçün çox faydalı hesab edilən meyvələrdən biridir. Tərkibində zəngin vitaminlər (A, C, E) və minerallar (kalium, maqnezium, fosfor) olan xurma həm immun sistemini gücləndirir, həm də antioksidant təsir göstərir. Lakin bəzi hallarda xurmanın həddindən artıq və ya düzgün olmayan istifadəsi sağlamlıq problemlərinə səbəb ola bilər”. Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida eksperti Asim Vəliyev deyib.

Asim Vəliyev sözlərinə belə davam edib: ”Xurmanın tərkibində təbii şəkərlər, xüsusilə fruktoza və qlükoza yüksək səviyyədədir. 100 qram xurmada orta hesabla 18-25 qram şəkər var. Bu qan şəkərinin sürətli yüksəlməsinə səbəb ola bilər. Şəkərli diabetdən əziyyət çəkən insanlar, xüsusilə 2-ci tip diabet xəstələri xurmanı nəzarətsiz miqdarda yedikdə hiperglisemiya riski ilə üzləşə bilərlər. Buna görə diabet xəstələrinin xurmanı məhdud miqdarda və həkim məsləhəti ilə qəbul etməsi tövsiyə olunur.



Xurma yüksək miqdarda tanin maddəsi ehtiva edir. Taninlər büzücü təsir göstərərək həzm prosesini ləngidə bilər. Bu səbəbdən qəbizlik problemi yaşayan insanlarda vəziyyəti daha da ağırlaşdıra bilər. Xurma kalium baxımından çox zəngindir. Böyrək çatışmazlığı olan insanlar qanda kalium səviyyəsinin yüksək olmasından əziyyət çəkə bilərlər. Bu vəziyyət ürək ritminin pozulması kimi ciddi problemlərə səbəb ola bilər. Buna görə xroniki böyrək xəstələri xurma istehlak etməzdən əvvəl həkimlə məsləhətləşməlidirlər.

Xurmanın çox istehlakı uşaqlarda mədə narahatlığı, qarın ağrısı və həzm problemlərinə səbəb ola bilər. Həmçinin həssas bağırsaq sindromu (IBS) olan şəxslər xurmanı ehtiyatla istehlak etməlidirlər, çünki bu meyvə bəzi insanlarda qaz və şişkinlik yarada bilər. Xurma çoxlu faydaları olan bir meyvədir, lakin müəyyən tibbi hallarda və ya çox miqdarda yeyildikdə sağlamlıq problemlərinə səbəb ola bilər. Ona görə də hər kəs öz sağlamlıq vəziyyətinə uyğun olaraq xurmanı nəzarətlə istifadə etməlidir. Unutmayaq ki, balanslı qidalanma hər zaman sağlam həyatın əsas şərtidir”.

***Ayşən Vəli***

# Ermənipərəst Ellen Borkla Əli Kərimlini hansı maraqlar birləşdirir?







İstər ölkəmizdə, istərsə də xarici ölkələrdə hansısa trol və ya beynəlxalq təşkilatın nümayəndəsi, eləcə də dövlət rəsmisi Azərbaycan haqqında şər və böhtanlar səsləndirəndə Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, İsa Qəmbər və xaricdəki antimilli ünsürlər məmnunluq hissi keçirirlər. Başlayırlar o qeyd olunan uydurma böhtanlar əsasında statuslar paylaşmağa. Hətta o dərəcədə həyəcanlanırlar ki, özlərini həmin böhtanların əsas təqdimatçıları olaraq göstərirlər. Yəni demək istəyirlər ki, xaricdəki antimilli qüvvələrin böhtanlarının hesabat formasında yayılmasında onların da rolu olub. Belə fəxarət hissi keçirmək utancvericidir. Çünki ölkəsinə qarşı həqarətlərin bir hissəsi olmaq və bundan sevinc yaşamaq rüsvayçılıqdır. Görünür bu kimi fəaliyyətin nəticəsində yeni qrantlar alır və mənəvi dəstək əldə edirlər. Məhz qrant xatirinə istənilən xarici məkrli dairənin, o cümlədən erməni lobbisinin Azərbaycanla bağlı şər və böhtanlarına dəstək verir və yayılan dezinformasiyaların Azərbaycan cəmiyyətinə çatdırılmasında yüksək fəallıq göstərirlər.

## AXCP-nin trolları yeni dezinformasiyalar yaymaq taktikasına yiyələnirlər

AXCP sədri Əli Kərimli dağıdıcı müxalifət düşərgəsində bütün yaramaz fəaliyyətlərin önündə olmağa can atır. Rəhbərlik etdiyi partiyada trolların sayının çox olması da digər pozucu qüvvələrdən fərqlənmək niyyətindən irəli gəlir. Trolların işi isə sosial şəbəkələr vasitəsi ilə Ə.Kərimlinin xarici qüvvələrdən aldığı təxribat xarakterli məlumatlarını, əndərəbadi videolarını paylaşmaqdan ibarətdir. Demək olar ki, heç bir trolun özünün müstəqil fikri və mövqeyi yoxdur. Onlar yalnız Ə.Kərimlinin vatçapda yaratdığı qruplarda paylaşılan videoları və statuslara heç bir əlavələr etmədən sosial şəbəkələrdə yaymağa məcbur edilirlər. Əks halda birinci xəbərdarlıqda vatçapda yaradılan qrupdan çıxarılır, ikinci cəzada isə partiya sıralarından xaric edilmək problemi ilə üzləşirlər. Ona görə də, cəbhəçi trollar tapşırıqları səhvsiz yerinə yetirməyə çalışırlar.

Bu günlər trolların işləri birəbeş artıb. Bu da Bakıda yüksək səviyyədə baş tutan COP29 konfransı ilə bağlıdır. Trollar COP29 konfransı ərəfəsi və konfransın keçirildiyi dönəm bütün mümkün vasitə və üsullardan istifadə etməklə tədbirin işinə əngəllər yaratmağa, əldə olunan uğurlu qərarlara kölgə yaratmağa cəhdlər göstərdilər. Məkrli planları nəticəsiz qalsa da, Ə.Kərimli işlərindən məmnun qaldıqlarını bəyan edib. O özünün sosial şəbəkə hesabında qeyd edib ki, Milli Şura və AXCP üzvləri COP29-la bağlı hansı məsələləri yerinə yetirmək lazım gəlirdisə, onu mümkün qədər icra etməyə nail oldular. Hətta Ə.Kərimli COP29 konfransında üzərlərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirdiklərinə görə, ABŞ və Avropadakı müəyyən dostları tərəfindən təşəkkür məktubları da aldıqlarını gizlətməyib.

## Əli Kərimli Ellen Borku yeni ağası hesab edir

Əli Kərimli trollarına xarici qüvvələrin yanında "hörmət-izzət" sahibi olan məxluq kimi təqdim etmək üçün ironiya ilə qarşılanan status paylaşıb. Yazıb ki, guya Almaniyanın faşist dərnəyinin əsas aparıcı simasızlarından olan Frenk Şveber AXCP haqqında müsbət fikirdədir. Əli Kərimli Corc W. Buş Prezident Mərkəzinin əməkdaşı, erməniperəst Ellen Borkun da onunla bağlı müsbət fikirlərə malik olduğunu qeyd edib: "Ellen Bork mənim "The Economist" jurnalında yazdığım məqaləmi yüksək dəyərləndirib". Ə.Kərimlinin sözlərinə görə, Ellen Bork müxalifət partiyası olan AXCP-yə dəstəyin göstərilməsini istəyib.

Qeyd etmək lazımdır ki, Ellen Bork ABŞ-da erməni lobbisinin əsas dayaqlarından hesab olunur. 44 günlük Vətən müharibəsində bədbəxt günlər yaşayan ermənilərə siyasi, iqtisadi dəstək göstərib. Konqresə müraciət edərək Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağırıb. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinə qarşı çıxan şəxslərin başında durub. Belə bir bədxah məxluqun Ə.Kərimliyə hansısa dəstəyi göstərməsi təəccüblü görünmür. Cinayətkarın əqidəli, sağlam düşüncəli insanla dostluq və yoldaşlıq etməsi mümkün deyil. Yəni el məsəlində deyildiyi kimi, "tay axtarıb, tayını tapar". Bir erməniperəst məxluq digər dağıdıcı ünsürlə tapışırsa və əməkdaşlıq etməyə qərar verirsə, bu, heç də təəccüblü görünmür. Bu baxımdan demək olar ki, Ellen Bork Ə.Kərimlinin yeni ağalarından biri hesab oluna bilər. Onların əməkdaşlıq münasibətləri nə qədər davam edəcəyi isə sual doğurur. Cavab aydındır: Nə qədər Ə.Kərimli Azərbaycan haqqında Ellen Borka "donos"lar göndərəcək və qarşılığında erməniperəst Ellen Bork Ə.Kərimliyə lazımi qədər maliyyə yardımları göstərəcəksə, münasibətlər o zamana qədər davam edəcək. "Donos" olmasa və pul gəlməsə əməkdaşlıq əlaqələri dayandırılacaq.

***İLHAM ƏLİYEV***

# "Psixoloqa getmək üçün müəyyən bir problem yaşamaq şərt deyil"

*PSİXOLOQ İZAH ETDİ*

**"İnsan ürəyini, onu həqiqətən anlayan, etibar edə biləcəyi və dinləməyi bacaran birinə açmalıdır". Bu sözləri SİA-ya açıqlamasında Psixoloq Psixoterapevt Orxan Şəfizadə deyib. O bildirib ki, nəzərə alsaq ki, hazırkı dövrdə günün şüarı : Heç kəsə etibar yoxdur və praktika da bunu təsdiqləyir: "Bunun üçün də bir Psixoloq, Psixoterapevt olarsa, daha uyğun olar. Əsas məsələ, mütəxəssisin neytral, mexanizm, psixo-funksiya olaraq, səmimi, mühakiməsiz və dəstək göstərməyə hazır olmasıdır.**

Psixoloqa getmək üçün müəyyən bir problem yaşamaq şərt deyil. Aşağıdakı hallarda psixoloqa müraciət etmək faydalıdır:

1. Emosional problemlər: Depressiya, narahatlıq, stress və ya uzunmüddətli kədər hiss etdikdə.

2. Həyat çətinlikləri: Ayrılıq, itki, iş problemləri, yeni mühitə uyğunlaşma.

3. Şəxsi inkişaf: Özünü daha yaxşı tanımaq, emosiyalarını idarə etmək və həyat keyfiyyətini artırmaq istəyənlər.

4. Münasibət çətinlikləri: Ailə, dost və ya iş yoldaşları ilə konfliktlər yaşadıqda.

5. Psixi sağlamlıq problemləri: Panik atak, fobiyalar, yuxu pozğunluqları kimi vəziyyətlərdə.

Psixoloq dəstəyi, həm problemlərin həllində, həm də ümumi psixi rifahın gücləndirilməsində mühüm rol oynayır.

İnsanın psixoloqa hər şeyi danışmaması müxtəlif səbəblərlə bağlı ola bilər və bu, hər zaman özgüvənsizliklə əlaqəli deyil. Aşağıda mümkün səbəbləri qeyd etmişəm:

1. Etimad məsələsi: İnsan, psixoloqa tam etibar etməyə vaxt lazım olduğunu hiss edə bilər. Bu, xüsusən də ilk görüşlərdə təbii bir reaksiyadır.

2. Utanc hissi: Bəzi mövzular insana çox şəxsi və ya utandırıcı gələ bilər, buna görə danışmağa çətinlik çəkə bilər.

3. Problemə öyrəşmə: İnsan, yaşadığı problemi yetərincə ciddi qəbul etməyə və ya paylaşmağın faydalı olacağına inanmayıb susa bilər.

4. Özünü açma qorxusu: Həqiqi emosiyaları və düşüncələri paylaşmaq bəzi insanlar üçün çətin ola bilər, çünki bu, onları həssas vəziyyətə sala bilər.

5. Doğru psixoloqu tapmamaq: Bəzən insan, psixoloqun onu tam anladığını və ya rahatlıq verdiyini hiss etmirsə, hər şeyi danışmağa meyilli olmur.

Bu davranış özgüvənsizlikdən çox, insanın daxili müdafiə mexanizmləri ilə bağlıdır. Vaxt keçdikcə, münasibət qurulduqca və psixoloqa olan etibar artdıqca, insan daha çox açılmağa meyilli ola bilər.







Psixoloqun pasientlə etibarlı və açıq bir ünsiyyət qurması üçün bəzi vacib prinsiplər var:

1. Etimad mühiti yaratmaq: Pasientə hər şeyin məxfi saxlanacağını və onun bölüşdüyü məlumatların yalnız müalicə prosesinə kömək edəcəyini izah edin. Etibarın əsasını məxfilik və dürüstlük təşkil edir.

2. Aktiv dinləmə: Pasientin danışdığı hər şeyi diqqətlə dinləyin və onun sözünü kəsməyin. Həmçinin, bədən dili ilə (başınızı tərpətmək, təbəssüm) onun dediklərinin sizin üçün vacib olduğunu göstərin.

3. Empatiya və dəstək göstərmək: Onun hisslərini anlamağa çalışın və heç bir şəkildə mühakimə etməyin. "Bu hissləri keçirmək çox çətin ola bilər" kimi cümlələr istifadə edin ki, o, sizin anlayışlı olduğunuzu hiss etsin.

4. Narahatlıq yaratmayan suallar vermək: Pasienti rahatlaşdırmaq üçün açıq və yumşaq suallar verin. Məsələn, "Bu barədə bir az daha ətraflı danışmaq istərdinizmi?"

5. Tənqid və mühakimədən çəkinmək: Onun söylədiklərini tənqid etməkdən, məsləhət verməyə tələsməkdən və ya davranışlarını qiymətləndirməkdən çəkinin.

6. Özünüzü əlçatan etmək: Danışarkən mehriban, sakit və dəvət edən ton istifadə edin. Pasientin sizinlə danışmağa hər an hazır olduğunu hiss etməsi vacibdir.

7. Vaxt və səbir göstərmək: Pasientin açılması üçün vaxt lazım ola bilər. Səbirli olun və bu prosesi təbii buraxın.

Əsas məqsəd pasientin özünü təhlükəsiz və başa düşülmüş hiss etməsini təmin etməkdir. Bu, onun sizinlə daha açıq danışmasına imkan yaradacaq".

***Söylü Ağazadə***

# “Temu” bizləri niyə və nə üçün aldadır?

***“T**emu”, işə salındığı gündən etibarən e-ticarət dünyasını fırtına ilə ələ keçirdi. İnsanlar bu platformada məhsulların son dərəcə aşağı qiymətlərlə olmasının da fərqindədirlər. Digər tərəfdən, bəzi insanlar ”Temu”nun istifadəsinin təhlükəsiz olub-olmadığına şübhə ilə yanaşır. Onlar məhsulun keyfiyyətindən və məlumat təhlükəsizliyindən narahatdırlar.*

## Bəs, ”Temu” təhlükəsizdir, yoxsa fırıldaqçılıqdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.




### ”Temu” nədir?

”Temu” (tee-moo) Bostonda, Massaçusetsdə yerləşən inkişaf etməkdə olan onlayn bazardır. Bu, Çin alış-veriş saytı ”Pinduoduo”nun qardaş şirkətidir və hər ikisi ”PDD Holdings”ə məxsusdur. ”Temu” istifadəyə verildikdən sonra son aylarda populyarlığının artdığını gördü. Statistikaya görə, ”Temu” 2023-cü ilin aprelinə qədər ABŞ-da 100 milyondan çox aktiv istifadəçi qazanıb. O, ”Google Play” proqram mağazasında 1-ci yerdədir.

”Temu” sözünün mənası ”Komanda yaradın, qiyməti aşağı salın” deməkdir. Bu şirkətin alıcılara ən sərfəli və keyfiyyətli məhsulları təklif etmək üçün satıcılarla işləməyi hədəflədiyi iddia edilir. Onlar alıcıların ”Milyarder kimi alış-veriş etmələrini” istəyirlər. ”Temu” geyimdən tutmuş elektronikaya qədər müxtəlif kateqoriyalarda geniş çeşiddə məhsullar təklif edir. Bu platformada demək olar ki, ehtiyacınız olan hər şeyi tapa bilərsiniz. Üstəlik, məhsullar yüksək endirimlə və çox sərfəli qiymətlərlə təqdim olunur.




### ”Temu” qanunidir?

Çox aşağı qiyməti saxtakarlıqla əlaqələndirmək asandır. Yenə də Temu inanılmaz ucuz məhsullar təklif etməsinə baxmayaraq qanuni və istifadəsi təhlükəsizdir.

Bunu aşağıdakı aspektlərdən başa düşə bilərsiniz.

### Satıcı yoxlanışı

”Temu” üçüncü tərəf satıcılarının satdığı qanuni onlayn bazardır. Sifariş verdiyiniz zaman satıcı sifarişi hazırlayır və ”Temu” sifarişin logistik tərəfdaşları tərəfindən göndərilməsinə icazə verir. ”Temu”, alıcıları fırıldaqlardan qorumaq məqsədi ilə tərəfdaşlıqda satıcılar üçün bir sıra qaydalar təyin edib. Məsələn, şirkət tərəfindən verilən Davranış Kodeksi, bu, təchizatçıların bazarda qanunlara və standartlara əməl etmələrini təmin edir.

### Alış mühafizə proqramı

”Temu”nun alışınıza əlavə təhlükəsizlik qatı əlavə etmək üçün ”Satış Qoruma” proqramı var. Bu proqram çərçivəsində siz aşağıdakı hallarda satış tarixindən etibarən 90 gün ərzində pulun geri qaytarılmasını tələb edə bilərsiniz.

- Aldığınız məhsul təfərrüat səhifəsində təsvir edilən və ya fotoşəkillərdə göstərildiyi kimi deyil
- Aldığınız məhsul xarab olub
- Elementiniz təxmini vaxt ərzində çatdırılmadı və ya tranzit zamanı buraxıldı
- Hər sifarişin ilk qaytarılması pulsuzdur. Əlavə xərclərdən qaçmaq üçün geri qaytarmaq istədiyiniz məhsulları birlikdə geri qaytara bilərsiniz.



### Təhlükəsiz ödəniş üsulları

Ödəniş təhlükəsizliyinə gəldikdə, ”Temu” bir çox təhlükəsiz ödəniş üsullarından istifadə edir. Məsələn, ”Visa”, ”MasterCard”, ”JCB” və ”Discover” kimi əsas kredit kartlarını qəbul edir. ”PayPal”, ”Apple Pay”, ”Google Pay” və ”Klarna” ödənişləri də dəstəklənir. Sifarişinizdə səhv bir şey varsa, kredit kartları və ”PayPal” sizə mübahisə etmək və pulunuzu geri almaq imkanı verir. Bundan əlavə, ”Klarna” və ya digər oxşar ödəniş variantları əvvəlcə satın almağa və sonra ödəməyə imkan verir. Ödənişdən əvvəl məhsullarınızı diqqətlə yoxlaya və sonra sifarişi təsdiqləyə bilərsiniz.

### Şəxsi məlumatların təhlükəsizliyi

”Temu” əlaqə məlumatları, yer, əməliyyat məlumatları və s. kimi şəxsi məlumatlarınızı toplayır. daxil olmaqla. Siz həmçinin ”Amazon” kimi digər alış-veriş platformalarında toplanmış bu cür məlumatları görə bilərsiniz. Bəzi hallarda, ”Temu” məlumatlarınızdan istifadə edə bilər, lakin əvvəlcə sizdən razılıq istəyəcək.

### ”Temu” niyə bu qədər ucuzdur?

”Temu”da 13 dollara smart saat, 5 dollara köynək ala bilərsiniz. Niyə əşyalar bu qədər ucuzdur?

*Ardı Səh. 11*



# "Temu" bizləri niyə və nə üçün aldadır?

Əvvəli Səh. 10

"Temu" Çində geniş təchizatçılar şəbəkəsi ilə əlaqələr qurub. Bunların əksəriyyəti birbaşa istehlakçılara satan istehsalçılardır. Satış baş verəndə "Temu" satıcılardan kiçik bir komissiya alır. Qazancı satıcılarla bölüşmək üçün "Temu"dan başqa vasitəçi yoxdur. Nəticədə, satıcılar aşağı qiymət təyin edə, lakin yenə də yüksək gəlir əldə edə bilərlər. Əksər hallarda müştərilər bir neçə dollar ödəməklə gözləntilərinə uyğun məhsul əldə edə bilirlər.

## "Temu"dan necə təhlükəsiz alış-veriş etmək olar?

"Temu" qanuni və təhlükəsiz olsa da, siz hələ də hər hansı digər bazarda olduğu kimi saxta satıcılarla qarşılaşa bilərsiniz. Bununla belə, bəzi təsirli məsləhətlərlə fırıldaqçılıq riskini minimuma endirə və təhlükəsiz şəkildə satın ala bilərsiniz.

"Temu"dan alarkən diqqət etməli olduğunuz 8 məsləhət.

**1. Mağaza reytinqlərini və məhsul rəylərini yoxlayın**

Sifariş etmədən əvvəl mağaza reytinqini və məhsul rəylərini yoxlamaq vacibdir. Mağaza reytinqi satıcının xidmətləri və məhsulun keyfiyyəti haqqında məlumat verir. 5-dən 4,5 və ya daha yüksək bal ümumiyyətlə satıcı ilə işləməyə dəyər olduğunu göstərir. Siz həmçinin satıcının neçə məhsul satdığını və satıcının neçə təkrar müştəri qazandığını yoxlaya bilərsiniz. Ən azı yüzlərlə əməliyyatı olanlardan satın almanızı tövsiyə edirik.









**2. Satıcı reytinqlərini yoxlayın**

Məhsul rəyləri məhsulun keyfiyyəti və əvvəlki alıcıların alış-veriş təcrübələri haqqında daha ətraflı məlumat verir. Bəzi satıcılar ən yaxşı məhsulları ucuz qiymətə satdıqlarını iddia edirlər. Amma çox güman ki, əşyalar saytda təsvir olunanlarla eyni deyil. Burada məhsul rəyləri işə düşür. Fotoşəkillərdən və digər alıcıların rəylərindən məhsulun əslində necə göründüyünə dair ipucu ala bilərsiniz. Ancaq bu vaxt bir az duz ilə mənfi rəylər alın. Məhsulun yüksək dərəcədə pis rəylərə sahib olduğunu görəndə səhifəni tərk etməyi unutmayın.

**3. Təhlükəsiz ödəniş üsulunu seçin**

"Temu" müxtəlif ödəniş üsullarını qəbul edir. Təhlükəsiz və tez-tez istifadə olunan ödəniş seçimini seçə bilərsiniz. Məsələn, "PayPal" ilə ödəyə bilərsiniz. Kredit kartları ilə müqayisədə, "PayPal"dan istifadə sizdən qeydiyyatdan keçməyi və şəxsi məlumatlarınızı onların tətbiqinə daxil etməyi tələb edir. "PayPal" nüfuzlu və şəxsi məlumatlarınız üçün kifayət qədər təhlükəsizdir. O, həmçinin sifarişinizdə bir şey səhv olarsa, ittihamlarla mübahisə etməyə imkan verir.

**4. "Temu"da "PayPal" vasitəsilə ödəyin**

**5. Göndərmə vaxtlarını anlayın və sifarişinizin vəziyyətini yoxlayın**

"Temu"nun çatdırılma müddətləri yerlərə, göndərmə üsullarına və digər amillərə görə dəyişir. Sifarişi çatdırmaq üçün adətən "Temu" 6 ilə 25 gün çəkir. "Temu" məhsulların əksəriyyətini xaricə göndərdiyi üçün bəzi hallarda sifariş gecikə və ya hətta tranzit zamanı itə bilər. Buna görə də bəzi alıcılar sifarişlərinin heç gəlmədiyini və Temunun fırıldaqçı olduğunu deyirlər. Buna görə də, lütfən, sifariş göndərildikdən sonra verilən izləmə nömrəsi ilə sifarişinizin vəziyyətini vaxtaşırı yoxlayın. Göndərmə statusu uzun müddət yenilənmirsə, dərhal müştəri xidməti ilə əlaqə saxlayın.

**6. "Temu" internet saytından kənarda satıcı ilə sövdələşməyin**

"Temu"dan kənarda sizi sövdələşməyə razı salan satıcılarla qarşılaşa bilərsiniz. Nə deyirsə desin, bunu etməyin. Bunun əvəzinə həmişə "Temu" veb-saytı və ya proqramı vasitəsilə alış-verişə davam edin. "Temu" yalnız əməliyyatlarınızı qoruyur və bu platformada mübahisələri həll edir. Nüfuzlu dilerlər sizdən xüsusi olaraq onlarla iş görmənizi tələb etməyəcəklər. Əməliyyatı saytdan kənara çıxarmağa cəhd edən və ya e-poçt və ya digər rabitə kanalları vasitəsilə şəxsi məlumat tələb edən satıcılarla əlaqə saxlamaqdan çəkinin.

**7. Böyük bir sifariş verməzdən əvvəl bir nümunə alın**

Böyük bir sifariş verməzdən əvvəl nümunələr sifariş etmək bezdirici görünür. Amma sonda bəhrəsini verəcək. Nümunə almaqla, məhsulun keyfiyyət, görünüş və funksionallıq baxımından gözləntilərinizə cavab verib-vermədiyini anlaya bilərsiniz. Siz həmçinin çatdırılmanın nə qədər vaxt aparacağına dair fikir əldə edə bilərsiniz. Təchizatçının probleminizi vaxtında və düzgün şəkildə həll edə biləcəyini də öyrənə bilərsiniz.

**8. Çox gözləməyin**

Bir neçə dollara keyfiyyətli saat gözləmək qeyri-realdır. "Temu" böyük sövdələşmələr təklif etsə də, əldə etdiklərinizlə bağlı çox şey gözləməyin. Əks halda, "Temu" alternativlərindən satın almaq daha yaxşı seçim ola bilər.

## "Temu" qanunidirmi?

Bəzi müştərilər "Temu"da pis alış-veriş təcrübələrindən şikayət etsələr də, Temu hələ də qanuni saytdır.

"Temu", Nasdaq-da siyahıya alınmış "PDD Holdings" şirkətinin sahibidir. "Temu", alıcıların əməliyyatlarını qorumaq üçün müxtəlif proaktiv tədbirlərə malikdir. Məsələn, "Temu" "Satınalma Qoruma" proqramını işə saldı. Bu proqram alıcılara sifarişləri çatdırılmadıqda, əşyalar zədələnmiş halda çatdıqda və ya əşyalar saytda təsvir olunduğu kimi deyilsə, tam geri qaytarmağa imkan verir.

## "Temu" məhsullarının keyfiyyəti yaxşıdır?

Ümumilikdə məhsulun keyfiyyəti yaxşıdır. Ancaq ödədiyinizi alırsınız. Əgər "Temu"dan 3 dollarlıq köynək alsanız, onun "Amazon"da 30 dollarlıq köynəklə eyni keyfiyyət olacağını gözləmək olmaz.

## "Temu"da pulsuz əşyaları necə əldə etmək olar?

"Temu" müştəriləri cəlb etmək üçün pulsuz məhsullar təklif edir. Yeni hesab açaraq, oyunlar oynayaraq, dostlarınıza "Temu" tövsiyə edərək, kupon kodlarını tətbiq etməklə və ya "Temu" influenceri olmaqla pulsuz şeylər əldə edə bilərsiniz.

## Bəs, "Temu"dan məhsul sifariş verənlər necə düşünür? Onların da fikirlərini öyrəndik:

**Röya Vahabova:** ""Temu" ölkəyə ilk gəldiyi günlərdə qiymətlərin ucuzluğu və pulsuz, sürətli çatdırılma ilə bazara daxil oldu. Mənim də ən diqqətimi çəkən məqam bu idi. Lakin bununla yanaşı kibertəhlükəsizlik problemlərinin də olduğu deyilirdi. Ona görə uzun müddət etibar etmədim, daha sonra yaxınlarım tərifləməyə başladı. Və necə deyərlər mən də bəxtimi sınayım dedim bəlkə, keyfiyyətli olar. İlk sifarişimdə heç bir problem yaşamadım. Tez bir zamanda seçdiyim məhsul olduğu kimi gəldi. Mənim telefonum üçün uyğun qoruyucu üzlüklər bizdə olmadığı üçün temudan sifariş verirəm. Ümumiyyətlə "Temu"dan razıyam. Daha sonra yaxınlarım da sifariş verdi və problemsiz əldə etdilər. Bəzən sifarişçilər verdikləri məhsulun şəklinə aldanır adına baxmır daha sonra təəssüflənirlər. Məsələn bir nəfər qulaqlıq almaq istəyir, baxır ki, ucuz qulaqlıq var şəkildə. Gələndə görür ki, qulaqlığın özü yox qabı gəlib. Çünki ada diqqət etmirlər ki, əslində qulaqlıq yox qulaqlıq qabı sifariş veriblər. Ona görə bəzən gülməli sifarişlər də çıxır ortaya".

Ləman Əlizadə: "Avqustun 7-si qulaqcıq sifariş elədim. Bir qədər gec gələcəyini ehtimal edirdim, amma ümumiyyətlə gəlməyəcəyini yox. Artıq sifarişimdən ümidimi kəsmişəm. O vaxtdan bəri bir daha "Temu"dan heç nə sifariş etmədim. Çünki mənim üçün boş yerə pul itkisi oldu".

***Ayşən Vəli***

# Nobel mükafatı laureatı, iqlimşünas alim: ”COP29 siyasi yox, ekoloji platformadır”









Rusiyalı iqlimşünas alim, Nobel Sülh Mükafatı laureatı, Ümumdünya Vəhşi Təbiət Fondunun İqlim və Enerji proqramının rəhbəri Aleksey Kokorin Caliber.Az-a müsahibəsində Bakıda keçirilən COP-29 konfransı və qlobal ekoloji problemlər haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Bildiyiniz kimi, müəyyən qüvvələr COP 29-u siyasiləşdirməyə çalışdılar- bəzi dövlətlərin yüksək vəzifəli şəxsləri müxtəlif bəhanələrlə Bakıya gəlmədilər, bəzi amerikalı konqresmenlər burada təxribatlar törətmək məqsədi ilə Azərbaycana səfər etdilər. Lakin COP29-un siyasətlə heç bir əlaqəsi yoxdur. Siz necə düşünürsünüz?***

- COP siyasətlə deyil, daha çox pulla bağlıdır. Deməli, sammitin siyasiləşdirilməsi belə təşəbbüskarlara çətin ki, uğur gətirsin. Paris Sazişinin bağlanmasından sonra bütün son COP konrfransları üç səviyyəli genişmiqyaslı maliyyə və təşkilati görüşlərdir. Onun birinci və ən çox media hissəsi ölkə liderlərinin bəyanatları və danışıqları, BMT qərarlarının müzakirəsi; ikincisi, nazirlərin çıxışları, konkret rəqəmlərlə ifadə olunan qərarların qəbulu; üçüncü hissə isə ekoloji festivalın özüdür, burada çoxlu turist var, tərəfdaşlar axtarmağa gələn, ekologiya sahəsində müxtəlif memorandumlar və müqavilələr bağlayan daha çox insan və təşkilat var.

Bəzi tənqidçilər tez-tez sual verirlər: bunun üçün COP nəyə lazımdır? Amma təcrübə göstərir ki, bütün ekoloqların, ictimai fəalların və siyasətçilərin hardasa bir yerə toplaşması və nəhayət, uzun müddətdir müzakirə olunan müqavilələri kağız üzərində imzalaması çox zəruridir.

***- COP29, xüsusilə fondların subsidiyalaşdırılması baxımından xüsusi sammit adlanır. Bu vəzifələri deşifrə edə bilərsinizmi, onların həlli necə gedir?***

- COP29, şübhəsiz ki, öz formatına malikdir. İlk növbədə ona görə ki, onun Paris iqlim sazişinin maliyyə hissəsini qəbul edib rəsmiləşdirmək şansı var idi. Hansı ki, sammitə ev sahibliyi edən ölkə üçün çox çətin bir işdir. Çünki söhbət inkişaf etməkdə olan ölkələrə iqlim layihələri üçün ayrılacaq böyük pul axınından gedir. İlk növbədə Afrika ölkələri olmaqla inkişaf etməkdə olan ölkələr ən azı 1 trilyon dollar istəyir.

Bəli, ilk baxışdan konsensus var- bütün inkişaf etmiş ölkələr maliyyələşdirmənin 1 trilyon dollara qədər artırılması tələblərinin ədalətli olduğunu qəbul edirlər. Xüsusilə, Çin, Hindistan, Braziliya və Cənubi Afrika kimi ölkələrə də maliyyə təmin edən ən böyük inkişaf etməkdə olan donorlar ayırmaları artırmaq strategiyasını dəstəkləyən vahid mövqe ilə çıxış ediblər, lakin dəqiq rəqəmlər və vaxt çərçivələrini açıqlamayıblar. Ona görə də razılığa gəlmək çox çətindir, proses uzanıb və məncə, yalnız dünya liderlərinin səyləri hansısa formada vəziyyətə təsir göstərə bilər və onları bu sahədə ən azı hansısa bir sənədi mətnli ifadələrlə imzalamağa məcbur edə bilərdi. Tərəflərin öhdəliklərinə əməl edəcəyinə ümid etmək istərdim.

***- Siz qeyd etdiniz ki, COP29 unikal görüş yeridir. Bu barədə bizə ətraflı məlumat verə bilərsinizmi?***

- Bu, çox maraqlı mövzudur, çünki COP29-da çoxlu oxşar nümunələr var. Axı yəqin ki, yalnız COP sammitlərində sadə ekoloq hansısa iri məmura, özünün və ya başqa ölkənin nazirinə yaxınlaşıb layihəni müzakirə edib, onun həyata keçirilməsi ilə bağlı razılığa gələ bilər. Yeri gəlmişkən, bir çox insan COP29-a məhz belə imkanlara görə gəlir. Daha konkret faktlar var: məsələn, COP29-da Azərbaycan, Rusiya, Qazaxıstan və Türkmənistan arasında Xəzər dənizində ekoloji əməkdaşlığa dair mühüm saziş imzalanıb. Saziş Xəzər dənizinin monitorinqini və elmi-praktiki fəaliyyətləri nəzərdə tutur. Ancaq COP29 olmasaydı bu imzalanma da olmazdı-amma burada maraqlı tərəflər bir araya gəldilər və çox vacib şeyləri tez bir zamanda razılaşdırdılar, necə deyərlər, müqavilənin mətnini tamamladılar, bütün detalları qeyd etdilər. Əks halda, bu məsələ növbəti COP-a və ya daha da uzağa gedəcəkdi. Və belə şeylər sammitdə asanlıqla həyata keçirilir.

Qazaxların daha təsirli presedenti var- COP29 sayəsində Balxaş gölünün xilası məsələsi müsbət həll olundu. Orada vəziyyət o yerə çatdı ki, Qazaxıstan hökuməti böyük qazax mədən şirkətinə gölü xilas etmək üçün işlərə vəsait ayırmalı oldu. Və belə görünürdü ki, tərəflər əvvəllər hər şeyi razılaşdırıblar, lakin məsələnin yekun həlli yubanıb. Və sonra COP29 başladı və tərəflər qərar verdilər: gəlin Bakıdakı sammitə gedək və nəhayət, orada hər şeyi imzalayaq. Və bunu Qazaxıstan pavilyonunda imzaladılar. Beləliklə, bu, sammitin təkcə beynəlxalq xarakterli ekoloji problemləri deyil, həm də təbii obyektlərin qorunmasında konkret ölkənin problemlərini həll edə biləcəyinin parlaq nümunəsidir. Mən hətta yeni əlaqələr qurmaq imkanlarından danışmıram.

COP29 daimi dinamikadır və məsələlərin müzakirəsidir, ona görə də hə an vacib bir şey razılaşdırıla bilər.

***Tərcümə - Elçin Bayramlı***



MƏTANƏT

# "Black Friday": Qara cümədə Ağ yalan

***Black Friday ( Qara cümə) artıq hər il olduğu kimi, bu il də başladı. Bir qədər ticarət mərkəzləri, market, mağaza, ”butik”lərdə endirim ”siyasəti” ilə bağlı danışmaq bu aralar lap yerinə düşər. Bu ”siyasətin” digər tərəfləri ilə yanaşı, ən əsas tərəfini-insanların aldadılması məsələsini xüsusi vurğulayaq ki, aldadılmayaq.***

Endirim... Bu hansı hallarda baş verir, bir qədər bu məsələyə aydınlıq gətirək. Məsələn, ticarət mərkəzləri, mağaza və ”butik”lərdə o zaman endirim kampaniyaları başlayır ki, hansısa məhsullara alıcı marağı olmur və onlar gətirildiyi kimi də vitrinlərdə qalır. Digər tərəfdən isə, məsələn, qış fəsli artıq başa çatır, baxırlar ki, vay, nə qədər məhsul qalıb vitrinlərdə, düşünürlər ki, bunlara bir qədər endirim edək satılsın ki, gələn qışa yeni dəbdə olan geyimlər gətirək.

Hə, bir də adətən kiçik ölçülər bir o qədər çox alınmır. Nəyə görə? Bunun da səbəbi var. Çünki kiçik ölçülərdə olanlar bizim övladlarımızdır. Hər kəsin isə maddi vəziyyəti bu geyimlərdən bol-bol almağa imkan vermədiyi üçün endirim kampaniyalarında adətən kiçik ölçülərə daha çox təsadüf edirik. Bəli, endirim kampaniyaları olur, bundan yararlananlar da olur. Lakin endirim ”siyasətinin” hər birimizin bilmədiyi tərəfləri var ki, bu, ağlımıza belə gəlmir.

Beləliklə endirim kampaniyaları başlayır. Ticarət mərkəzlərinin, mağaza və butiklərin bütün qapı və pəncərələrə böyük rəqəmlərlə 70%, 50% faiz yazılır ki, diqqətləri çəksin. Biz də təbii ki, həmin endirim faizlərini görürük, bir-birimizə xəbər verib sevinc və təlaş içərisində həmin mağazalara yollanırıq... Məsələn, yolumuzu ticarət mərkəzlərindən salırıq. Yaxınlaşırıq endirim kampaniyaları olan mağazalara. Baxırıq qiymətlərə, görürük ki, Allah, hələ bunun qiyməti endirilib belə bahadır, gör əvvəlki qiyməti necə imiş. Beləliklə, gəzirik, gəzirik, görürük ki, yox, bu qiymətlərlə biz buradan vur-tut bircə ədəd nə isə ala bilərik ki, bu da...

Necə ki, bədii filmlər var, bilinməyən sonluqla bitir, uşaqlıqda həmişə ata-anamıza deyirdik ki, bəs bunun axırı necə oldu, onlar da deyirdi ki, bu sonluğu anlamaq artıq tamaşaçının ixtiyarına verilir. Hə, bax, tutaq ki, vur-tut bircə məhsul aldıq. Sonra nə baş verəcəyini isə, əziz oxucular, düşünmək sizin ixtiyarınıza verilir.

Bir qədər də ərzaq məhsulları barədə. Necə ki, bazarlarda göyərti, meyvə-tərəvəz satan satıcı görür ki, əlində xeyli məhsul var, xarab olacaq, bir qədər qiymətdə endirim edir, camaatı səsləyir, onlar da gəlib alırlar. Marketlər də elədir. Göründə ki, bu məhsulun son istifadə tarixinə günlər qalır, onda endirimlərə başlayır. Marketə girirsən, böyük hərflərlə yazılan ”Endirim” sözü səni qarşılayır. Sevinc içərisində yaxınlaşırsan, ”nə gözəl”,- deyib başlayırsan səbətə yığmağa.

Bəli, bunlar endirim haqqında gördüyümüz, bildiyimiz və bunların əsnasında deyə biləcəklərimizdir. Keçək endirimdə bəzən insanların aldadılması məsələsinə ki, bu, qəsdən edilir, təsadüfən olur, deyə bilmərəm, lakin qarşılaşanda ”yanlışlıq”,- deyib özünü müdafiə edənlər çox olur. Bu yaxınlarda marketlərdən birində şorda olan endirimdən faydalanmaq istədim, aldım və sonra çekə baxarkən onun endirimli yox, əvvəlki qiymətini ödədiyimi gördüm. Marketə qayıtdım. Orada bunu araşdırarkən məlum oldu ki, bəs endirim dünən bitibmiş, lakin yaddan çıxıb endirimli qiymət vitrində qalıb. Bu sözlər sizcə həqiqətə nə qədər yaxındır? Sözə bir də diqqət edin: endirim dünən idi, bitib, qiymət yaddan çıxıb dəyişdirilməyib. İnanan daşa dönsün.

Beləliklə, bax, hər kəsin diqqətli olması gərəkdir. Çünki aldığımız məhsulları səbətə yığırıq. Sonra da kassada ümumi şəkildə ödəniş edirik. Bizə endirimdə olan məhsulları həqiqətən də o qiymətə satılmasının çox halda fərqində olmuruq. Lakin fərqində olmağa çalışaq. Çekə tez-tez baxsaq, belə hallarla qarşılaşdığımızı görə bilərik. Çünki bu, dəfələrlə olur. Soraqlaşsaq, elə bir ailə olmaz ki, bu kimi hallarla ən azından bir-iki dəfə qarşılaşmasın. Ona görə də ayıq-sayıq olmaq lazımdır. Həm istifadə müddətinə sayılı günlər qalan məhsulu alıb kiminsə ticarətinin zəifləməsinə imkan verməyək, həm də endirimli qiyməti deyil, əvvəlki qiyməti ödəyək, bu, doğru olan məsələ deyil.

Qaldı ticarət mərkəzlərində, mağaza və ”bütik”lərdə geyim məhsullarının endirimli qiymətlərlə satışına, burada da bizi aldatmağa çalışanlar az deyil. Məsələn, baxmayaraq ki, qapı-pəncərələrinə ”Böyük endirim” yazıb, camaatda maraq yaradırlar, lakin burada endirim ”siyasətindən” elə məharətlə istifadə olunur ki, nə göz görür, nə də könül bulanır. Belə ki, qiyməti öz aralarında bir qədər qaldırıb, sonra da endirimli qiymətə salırlar, bu da əslində əvvəlki qiymət olur. Lakin ”Endirim” çağırışı şüuraltında özünə necə yer edirsə, kütləvi şəkildə mağazalara gedir, sıxlıq yaradır, bir-birimizi əzə-əzə, bir-birimizin başı üzərindən alış-veriş edirik, hələ bundan razı da qalırıq ki, endirimlə aldıq. Lakin əslində burada endirimdən söhbət belə getmir.

Belə, endirim ”siyasəti” haqqında bildiklərimiz bundan qat-qat artıq olsa da, lakin yazını uzatmamaq xətrinə bu qədər danışmalı olduq. Uzun sözün qısası, ayıq-sayıq olaq ki, aldanmayaq. Bu endirim söhbəti çox halda boş söhbətdir... Xüsusilə Black Friday (Qara cümə)... Bu, qara cümədə ağ yalandır.

# Bir payız tablosu qarşısında

***Bu, cansız bir tablo deyil, evlərimizin divarından da asılmayıb. Onunla hər gün yüzlərlə insanın keçdiyi şəhərimizin küçə, meydanlarında, park və xiyabanlarında qarşılaşırıq. Bu tablonun "müəllifi" iki aydan artıqdır, yayın geri çəkilib, yerini öz "əlləri" ilə təhvil verdiyi payızdır. Budur, ağacların ağ saçlara dən düşmüş kimi yaşıldan sarıya çönən yarpaqları hələ də özünü payızın solğun günəşinə təslim etməyib yaşıllığını saxlayan otların üstündə qəribə bir harmoniya yaradıb. Bir azdan xəfif bir külək əsir - payız küləyi. Xəzəl ömrü yaşayan yarparların havada bir rəqsinə bax? Bu külək payızın hələ tam hakim kəsilmədiyi ağaclardan yalnız özünə məxsus olan sarı yarpaqları qoparıb alır qarşısına.***



Küçələrdə, səkilərdə bir-biri ilə sanki "qovala-qaç" oynayır yarpaqlar, biri qaçır, o birilər düşür onun ardınca. Nəhayət, toplaşırlar özlərinə sığınacaq sandıqları bir divarın dibinə, bir ağacın altına. Bu dəfə artıq külək yarpaqları yerindən qopara bilmir, lakin onun təsirindən adamın qulağında bir-birinə toxunan xəzəllərin "xışıltı" adlı nəğməsi səslənir. Gözlərin önündə, həqiqətən də, baxmaqla doyulmayan bir tablo var - payız tablosu. Səhərdən bəri şəhərimizdəki parklardan birində qarşısında dayandığım bu canlı tablonu daha bir qədər də seyr etmək üçün skamyalardan birində əyləşirəm.





Bir-birini əvəz edən mənzərələr məni xəyalən iki il əvvələ aparır- 44 günlük o payızaQarabağda Zəfər qazandığımız o payıza 30 il Qarabağa kabus kimi çökən, baharın gəlməsini əngəlləyən o payıza İşğal altında olan baharsız torpaqlarımızın payızına Axı bu torpaqlar qovmuşdular baharı da, yayı da. Onlar bir qışla, bir də ki, payızla qəm ortağı, kədər yoldaşı olmuşdular. Azad olunanadək günəşsiz qalacaqlarına, baharın allı-güllü yaylığını başlarına salmayacaqlarına söz vermişdilər. Beləliklə də bu torpaqlara bir payız, bir də qış hakim olmuşdu. Günəşsiz payız, soyuq, sazaq, saralmış yarpaqlar, bir də ağappaq qar

Qarabağ doğmasının ayaqlarını sinəsində duyanda baharı çağıracaqdı, çəməninədüzünə al-əlvan güllərini səpələyəcəkdi. Başından qara örpəyini çıxarıb, al rənglisini taxacaqdı.

2020-nin 44 günü- 44 günlük payızı, 30 illik bu yurdlara hakim payız özü öz əllərilə gətirdi baharı bu ellərə. Bir qərinəyə yaxın hökmranlığım ta bəsdi, dedi. Çəkildi bir kənara, yerini verdi o soyuqda, o sazaqda allıgüllü bahara. Minlərlə oğlumuzun-igid, qəhrəman övladlarımızın gəlişi ilə Qarabağa günəş doğdu. Torpaq, yurd-yuva, el-oba üçün axan qanlar çəmənlərin-düzlərin al-əlvan güllərinə, çiçəyinə döndü. Üçrəngli bayrağımız azad edilən yurdların başı üstündə dalğalandıqca, bu ellərə nəfəs gəldi, yaşamaq həvəsi gəldi.

Payız payızlığını göstərdi. Xəzəli ilə bircə anlıq yuxusunda əsgərimin başının altına yastıq, üstünə yorğan oldu. Özünü tutdu saxladı, yağışların çox yağdırmadı. Palçıq olar, əsgərimə əsgəl olar deyə Əksinə bir kənara çəkilərək baharı səslədi. Lakin bahar vaxtı olmadığından əsgərim üşüdü də, dondu da, lakin bir addım da çəkilmədi. Ruhundakı baharla-günəşlə payızı-onun sazağını dəf etdi. İrəliyə-irəliyə gedərək torpaqları yağıdan bir-bir azad etdi.

Payız ana oldu 44 gündə- Payız ana. Torpaq üçün canlarından keçərək şəhid olan övladları anasından əvvəl payız aldı qucağına. Oxşadı, öpdü üz-gözündən, göz yaşını leysan edib axıtdı üzlərinə. Minlərlə şəhidimə bayatı qoşdu, minlərlə qazimi qoynuna aldı, gizlətdi, ölməyə qoymadı.

Payız fəsillər fəsli oldu 44 gündə. 30 ilin işğalının sonu oldu Qarabağda. Elə o ildən də payız fəsillərin tacı oldu. Şəhidimizin şahidi kimi, Zəfərimizin də şahidi oldu.

Küçələrlə heç bir maneə rəqslərinə, qaçışmalarına xələl gətirməyən yarpaqların xışıltısı, bir də toran vaxtı olduğu üçün küçə işıqlarının bərq vurması ilə xəyallardan ayrılır, ətrafa nəzər salıram. Daha valehedici mənzərələrlə qarşılaşıram: işıq şüaları üzərinə düşən yarpaqların parıltısı, qızılı-sarı yarpaqların skamyaların üzərindəki gözəl xalı görüntüsü, yanımdan dəstə-dəstə ötən insanların payızın xoş mənzərələrini bir-birilərinə göstərərək onu körpə bir uşaq kimi oxşamaları... Bir qədər aralıda qoca, cavan, uşaq-bir xeyli adamın bu təmiz havanı ciyərlərinə çəkmək üçün gəzişdikləri və addımların xəzəlin yeni bir "nəğməsini" yaratdığını..

Qalxıram Sıx ağacların cərgəsi önündə addımlayıram. Payızın bir yeni nəğməsini dinləyə-dinləyə addımlayıram. Bu nəğmə payızın qürur nəğməsidir. Payız fəxr edir Qarabağ qələbəsi ilə, o qələbəyə şahidlik etməsi ilə. O qələbənin onun qoynunda qazanılması ilə Dinlədiyim nəğmədə bütün bunlar həzin-həzin misralanıb, bəndləşib, gözəl, könülləri oxşayan, qəlblərə qürur, sevinc dolduran bir nəğməyə çevrilib. Bu nəğmə payızın tablosu qarşısında onun füsnunu bir qədər də gözəlləşdirir. Baxdıqca doyulmaz, gözləri, könülləri oxşayan edir: Zəfər fəslini, qürur fəslini, rənglərin harmoniyası ilə özü öz rəsmini çəkən payız fəslini

***Mətanət Məmmədova***

# Borca verilmiş pulu necə geri almaq olar?

## DETALLAR BƏLLİ OLDU

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 739-cu maddəsinə əsasən Borc müqaviləsinə görə bir tərəf (borcverən) pul vəsaitinə və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər tərəfə (borcalana) verməyi öhdəsinə götürür, borcalan isə aldıqlarını müvafiq olaraq eyni məbləğdə pul vəsaiti və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borcverənə qaytarmağı öhdəsinə götürür. Borcalan borcu borc müqaviləsində nəzərdə tutulan müddətdə və qaydada borcverənə qaytarmalıdır". Bu sözləri SİA-ya açıqlamasında AR Vəkillər Kollegiyasının üzvü Aysel Seyidova deyib. Aysel Seyidova sözlərinə belə davam edib: "Əgər borc müqaviləsində borcun qaytarılması üçün müddət müəyyən edilməmişdirsə, borcverən borcun qaytarılmasını istənilən vaxt tələb edə bilər və borcverənin icra tələbini almış borcalan bir ay müddətində borcu qaytarmalı. Qanunda və ya borc müqaviləsi ilə borcalanın xeyrinə ayrı qayda nəzərdə tutulmayıbsa, borcverən müəyyən müddətə verilmiş borcun vaxtından əvvəl qaytarılmasını da tələb edə bilər:

borcalanın əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə borcverənə sonradan məlum olduqda) və ya borcalanın borcverənə hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda; borcun hissə-hissə qaytarılmasını nəzərdə tutan borc müqaviləsi üzrə vaxtı çatmış borcun 90 gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud borcun ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 gündən az olmamaqla); borcalan borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə,





borcverənin cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda; borcun təyinatı borc müqaviləsində göstərildiyi halda borcalan borcverənə borcun təyinatı üzrə istifadə edilməsinə müqavilədə nəzərdə tutulmuş qaydada nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda.

Burda əsas diqqət yetiriləcək məsələ borc müqaviləsinin hansı formada bağlanmasıdır.

Borc müqaviləsi tərəflərin razılaşması ilə şifahi və ya yazılı formada bağlanır.

Gələcəkdə borc alan borcu qaytarmaqdan boyun qaçırdıqda, borc verən pozulmuş hüquqlarının bərpası və müdafiəsi üçün məhkəməyə müraciət edə bilər. Lakin borc müqaviləsi şifahi formada bağlandıqda həmin müqaviləni məhkəmədə sübut etmək çətindir. Yazılı müqavilə isə, xüsusilə də notarial müqavilənin olması sübut əhəmiyyəti daşıyır. Buna görə borc müqaviləsini yazılı, əsasən də notarial qaydada bağlanmasını məsləhət görürük. Xüsusən AR Mülki Məcəlləsində qeyd edilir ki, borc müqaviləsi predmetinin məbləği üç min manatdan çoxdursa və ya məbləğindən asılı olmayaraq müqavilənin iştirakçısı hüquqi şəxsdirsə, borc müqaviləsi yazılı formada bağlanmalıdır. Bu artıq qanunvericiliyin zəruri tələbidir".

***Ayşən Vəli***

# Fransa ölkəmizə düşmənçiliyini COP29 zamanı da dayandırmadı

## *COP29 fransız neokolonializminin ifşası platforması oldu*

**Bir vaxtlar özünü dünyada mütərəqqi dəyərlərin daşıyıcısı, demokratiyanın beşiyi kimi təqdim edən Fransanın bugünkü vəziyyəti, sözün əsl mənasında, faciəvidir. Belə ki, hazırda Fransa öz tarixinin ən pis dönəmindədir. Yelisey Sarayının dünyada, xüsusilə də Avropa İttifaqı (Aİ) məkanında nüfuzu getdikcə əhəmiyyətli dərəcədə aşağı düşür, Afrikadakı və dənizaşırı ərazilərdəki müstəmləkə ölkələrində tez-tez rəsmi Parisə qarşı etirazlar baş qaldırır, ”Rədd ol, Fransa!” şüarları səsləndirilir. Ölkə daxilində də vəziyyət qənaətbəxş deyil.**





Bütün bunların əsas səbəbi kimi isə prezident Emmanuel Makronun səriştəsiz idarəçiliyi göstərilir. Bildirilir ki, onun ökənin reallıqlarını, qlobal çağırışları, cəmiyyətin sosial sifarişlərini nəzərə almadan verdiyi populist qərarlar Fransanı açınacaqlı duruma











salıb. Fransada Makron iqtidarının siyasi iflasını təsdiqləyən çoxsaylı faktlar sadalamaq mümkündür. Əlbəttə ki, Prezidentin nüfuzunun quyunun dibinə düşməsi bunun ən bariz göstəricisidir. Eyni zamanda, cari ildə keçirilən mühüm seçkilərin nəticələri də hazırkı iqtidar komandasına inamsızlığın pik həddə yüksəldiyini təsdiqləyir. Söhbət 2024-cü ildə baş tutan Avropa Parlamentinə və Milli Assambleyaya seçkilərin nəticələrindən gedir. Fransada indiki siyasi iflas məhz son seçkilər cəhdindən sonra daha da kəskinləşib.

Analitiklər Makron üçün çətin hakimiyyət dövrünün başladığını, makronizm üçün sonun gəldiyini anons edirlər. Artıq Fransa Prezidentinin reytinqi antirekord həddə enib. Bu barədə məlumat ”Verian-Epoka” tədqiqat mərkəzinin ”Figaro” nəşri üçün apardığı araşdırmanın nəticələrində əksini tapıb. Araşdırmaya görə, Fransa liderinin populyarlıq səviyyəsi daha beş faiz azalaraq 17 faizə enib. Bu, Makronun Prezident seçildiyi 2017-ci ildən bəri ən aşağı göstəricidir. Eyni zamanda, respondentlərin 78 faizi Prezidentin fəaliyyətindən narazı olduqlarını bildirib.

Göründüyü kimi, fransızlar arasında belə bir yekdil fikir formalaşıb ki, ölkə getdikcə artan problemlərdən, dərinləşən siyasi və iqtisadi böhrandan xilas olmaq üçün ilk olaraq Prezident Makrondan qurtulmalıdır. Makron isə Fransa parlamentinə və Avropa Parlamentinə seçkilərdə partiyasının aşağı nəticələrinə baxmayaraq, prezident postunu tərk etmək niyyətində olmadığını və 2027-ci ilin mayında keçiriləcək seçkilərədək vəzifəsində qalacağını bildirib.

”Yazıq” Makron dünya qarşısında öz günahlarını yumaq, dünya ictimaiyyəti ilə həmrəy olmaq əvəzinə hələ də ölkəmizi hədəfə almaqla diqqəti bəd əməllərindən yayındırmağa çalışır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın sədrlik etməsini həzm edə bilməyən Makron bu mötəbər tədbirin gözdən salınması məqsədilə dəridən, qabıqdan çıxdı, bir sıra dövlət başçılarına tədbirə qatılmamaq barədə çağırışlar da etdi. Fransa mətbuatında COP29-la bağlı yayılan qərəzli məqalələrdə Azərbaycanın neft-qaz sənayesi hədəfə alınırdı. Bu, əslində Azərbaycanın beynəlxalq enerji bazarındakı strateji roluna mane olmaq məqsədi güdürdü. Paralel olaraq Fransa tərəfi Azərbaycanın ənənəvi enerji resurslarına malik olmasını ”əsas gətirərək” bunu iqlim problemlərinin həlli ilə bağlı müzakirələrlə ”uzlaşmadığını” bildirirdi. Bütün bunlar isə Azərbaycanın COP29-a ev sahibliyi etməsindən narahat olan Fransanın bu tədbirə qarşı çıxışları, həm Azərbaycanın nüfuzunu zəifltəmək, həm də enerji məsələlərində öz maraqlarını irəli çəkmək cəhdi kimi qiymətləndirilir.

Əslində, Fransa hakimiyyətini narahat edən daha böyük məqam var. Məsələ ondadır ki, COP29 fransız neokolonializminin ifşası platforması oldu. Bütün dünya tədbirin sayəsində ölkənin ətraf mühitə və ekologiyaya mənfi təsir göstərən hərəkətləri, ümumən, mövzuya dair faktlarla tanış oldu. Fransa özünün müstəmləkə siyasətinin iflasa uğrayacağından əndişələnməyə başlayıb və öz aləmində qabaqlayıcı tədbirlər görməyə girişib. Ən faciəli durum isə rəsmi Parisin COP29 çərçivəsində səslənmiş obyektiv fikirləri və faktları qiymətləndirib nəticə çıxarmaq istəməməsi, məsələni sırf düşmənçilik kimi qiymətləndirməsidir.

Göründüyü kimi, Fransanın xarici siyasətinə cavabdeh olan dövlət qurumunun, ümumən rəsmi Parisin baxış bucağı çox dardır. Ölkənin idarəçilik industriyası özünü hər şeydə düşmənçilik görməyə kökləyib. Problem ondadır ki, Fransanın Azərbaycana münasibəti düşmənçilik üzərində qurulub. Qatı erməniпərəstliyin timsalında nahaqqı haqdan üstün tutmağın başqa adı yoxdur. Fransa COP29-u bəhanə edərək öz qərəzli mövqeyi ilə regionda sülh və sabitliyə mane olmağa çalışırdı. Amma arzusu bu dəfə də ürəyində qaldı. Bütün dünyanın nəzərləri Azərbaycana yönəldi. Dünyanın 196 ölkəsindən 72 mindən çox nümayəndə COP29-da iştirak etmək üçün Bakıya gəldi. 80 prezident, vitse-prezident və baş nazir çox fəal şəkildə liderlərin zirvə görüşündə iştirak etdi. Fransanın ölkəmiz əleyhinə hazırladığı bu oyun da baş tutmadı...

Fransanın Ermənistana havadarlıq etmək naminə Azərbaycana qarşı düşmən münasibət bəsləməsi anlaşılan deyil. Paris ədalətsiz və qərəzli formada Azərbaycana ”təzyiq” göstərmək üçün bütün rıçaqlarını işə salıb - təbii ki, heç bir işə yaramayan bu addımlar nəticədə Fransanın imicinə zərbə vurur. Xüsusilə, 2020-ci il Vətən müharibəsindən sonra addımbaşı Azərbaycana qarşı qarayaxma kampaniyası təşkil etmək, ”beynəlxalq təzyiq” formalaşdırmaq, hətta ölkəmizə qarşı bəzi ”sanksiyalar” yönəltmək kimi ”arzular”a düşən Makron hakimiyyəti Milli Assambleyanın və Senatın əli ilə qərəzli ”qətnamələr” belə qəbul etdirməyə çalışıb. Frankafoniya təşkilatında, BMT Təhlükəsizlik Şurası çərçivəsində ölkəmizə qarşı aparılan kampaniyalar iflasa uğrayıb. Rəsmi Parisin bu mövqeyi belə bir reallığı bütün çılpaqlığı ilə ortaya çıxardı - özünü Mərkəzi Avropanın aparıcı dövləti sayan Fransa cılız hisslərin, qərəzin əsirinə çevrilib.

Bu gün Azərbaycan beynəlxalq hüquq çərçivəsində milli maraqlarını müdafiə edərək bu cür təzyiqlərə qarşı mübarizədə qətiyyət nümayiş etdirir. Bu tədbir də bir daha Azərbaycanın dünya siyasətinin ön cərgəsinə çıxdığını sübut etdi. COP29 təsdiq etdi ki, rəsmi Bakı beynəlxalq miqyasda özünəməxsus siyasət aparır, qlobal oyunçu kimi özünü təsdiq edir. Bakı isə dünya siyasətinin müzakirə olunduğu mühüm mərkəzə çevrilməkdədir. Bu tədbirin uğurla başa çatdırılması COP29 ərəfəsində və dünya rəsmilərinin Bakıya toplaşdığı günlərdə ölkəmizə qarşı təşkil edilən hücumların hamısının uğursuzluğa düçar olduğunu göstərdi. Fransa birdəfəlik dərk etməlidir ki, Azərbaycana qarşı nə isə etmək iqtidarında deyil - buna gücü çatmır və heç zaman da çatmayacaq!..

***Yaqut Ağaşahqızı***

# Prezident: “Enerji siyasətimizin prioriteti yaşıl texnologiyadır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ictimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*










***Əslində hamımıza məlumdur ki, yaşadığımız planet getdikcə çirklənir, temperatur qalxır və dünyamız tezliklə yaşayış üçün yararsız hala düşəcək. Ekoloji balansı pozan amillər isə çoxdur, kənd təsərrüfatında istifadə edilən kimyəvi maddələr, avtomobillərin sürətlə artması, meşələrin məhv edilməsi kimi vəziyyət də bu amillərdəndir. Yəni, insan fəaliyyətinin yaratdığı bir sıra problemlər ümumi evimizi - dünyanı təhlükəyə aparır.***

Əslində, ötən əsrin sonlarından etibarən dünya bu təhlükənin qarşısını almağın yollarını axtarır, cəhdlər edir. 1992-ci ildə UNFCCC (Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası) ilə Birləşmiş Millətlər səviyyəsində özünü büruzə verən bu cəhdlərdən ən vacibi 1997-ci ildə imzalanan Kioto Protokolu adlı sənəd idi. Kioto Protokolu 1997-ci ildə iqlim dəyişikliyi ilə mübarizə üçün atılacaq addımların ən vacibidir deyə bilərik. Bu protokolu imzalayan ölkələr karbon qazı və istixana effektinə səbəb olan digər beş qazın emissiyalarını azaltmağı və ya bunu edə bilməyəcəkləri təqdirdə karbon ticarəti yolu ilə hüquqlarını artırmağı öhdələrinə götürüblər. Protokol ölkələri atmosferə buraxdıqları karbonun miqdarını 1990-cı il səviyyəsinə endirməyi tələb edir. 1997-ci ildə imzalanmış protokol 2005-ci ildə qüvvəyə minib. Çünki protokolun qüvvəyə minməsi üçün 1990-cı ildə ratifikasiya edən ölkələrin emissiyaları (atmosferə buraxdıqları karbonun miqdarı) yer üzündəki ümumi emissiyaların 55%-nə çatmalı idi və bu göstəriciyə 8 il sonra Rusiyanın da qatılması ilə nail olmaq oldu.

Daha sonra imzalanan Paris sazişi, 197 ölkənin iqlim böhranının qarşısını almaq üçün birgə hərəkət etməli olduqları barədə razılaşmaya gəldikləri haqda beynəlxalq müqavilədir. Paris sazişi mahiyyət etibarilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına əsaslanır. Bu saziş, Kioto Protokolunun müddətinin bitdiyi 2020-ci ildən sonra iqlim dəyişikliyi prosesini tənzimləmək məqsədi daşıyır. Paris sazişinin məqsədi 2020-ci ildən sonrakı dövrdə iqlim dəyişikliyi təhlükəsinə qarşı qlobal sosial-iqtisadi dayanıqlığı gücləndirməkdir. Bu məqsəd mədən yanacaqlarının - neft və kömürdən istifadənin tədricən azaldılmasını və bərpa olunan enerjiyə meyillənməni tələb edir.



Paris sazişi iqlim dəyişikliyinə qarşı beynəlxalq əməkdaşlığı fərqli şəkildə davam etdirir. Paris razılaşması və konvensiyaya əlavələr sistemi, qlobal emissiyalarda ən yüksək paya sahib olan ABŞ və Çinin öz məsuliyyətini anlaması, eləcə də bütün tərəflərin bu işdə əməkdaşlıq etməsini şərtləndirir. Bu razılaşma, iqlim böhranının qarşısını almaq üçün qlobal orta səth temperaturunun artımını 2 dərəcə ilə məhdudlaşdırmaq və mümkünsə 1,5 dərəcədən aşağı saxlamaq məqsədi daşıyır.

İnsan fəaliyyəti nəticəsində təbiətə vurulan ziyan bütün canlıların həyatı üçün ciddi təhlükə yaradır. Ətraf mühitin çirklənməsi ekosistemin tarazlığını pozur və qlobal istiləşməyə səbəb olur. Sənaye inqilabından sonra qalıq yanacaqlardan istifadənin artması bəşəriyyətin ətraf mühitə vurduğu əsas zərərlərdən biridir. Qalıq yanacaqların istifadəsi nəticəsində atmosferə atılan istixana qazlarının artan konsentrasiyası planetin daha da istiləşməsinə səbəb olsa da, qlobal temperaturun artması müxtəlif canlı növləri üçün çox təhlükəli olan iqlim dəyişikliyinə də səbəb olur. Emissiyaların qlobal temperaturun artmasında böyük rol oynadığını deyən ekspertlər, qalıq yanacaqlara qoyulan investisiyalar davam edərsə, 2030-2052-ci illərdə qlobal temperatur artımının 1,5-2 dərəcəyə çatacağını təxmin edirlər ki, bu da dünya üçün fəlakət deməkdir.

Mütəxəssislər dünyada temperatur artımının 2 dərəcəyə çatacağı təqdirdə buzlaqların əriməsinin dəniz səviyyəsini yüksəldəcəyini, qitələrin bir hissəsinin su altında qalacağını, əkinçilik və heyvandarlığın ciddi şəkildə təsirlənəcəyini proqnozlaşdırırlar. Sektoral karbon emissiyalarının ən böyük payı enerji sektorundan və sənayenin müxtəlif sahələrindən yaranır. Qlobal karbon emissiyalarında enerji sektoru təxminən 26 fazilik bir paya sahib olsa da, sənaye fəaliyyətləri 20, meşə təsərrüfatı 17, nəqliyyat sektoru 14, kənd təsərrüfatı 13 faizlik paya malikdir. Bundan əlavə, torpaq, hava çirklənməsi, təbiətin məhv edilməsi və planlaşdırılmamış urbanizasiya kimi bəşəriyyətin ətraf mühitə vurduğu digər zərərlərin sürətlə artması təbiətdəki canlı növlərinin yox olması üçün ciddi risklər yaradır.

Qida ehtiyacının ödənilməsində mühüm rol oynayan torpaqlar, yanlış əkinçilik üsulları, sənaye və məişət tullantılarının istifadəsi kimi səbəblərlə gündən-günə daha çox çirklənir və bu çirklənmə həm torpaq ekosisteminə, həm də iqlimə zərər verir. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) açıqladığı məlumatlar yer üzündə torpağın təxminən 1/3 hissəsindən çoxunun deqradasiyaya uğradığını göstərir. Bu, torpağın qorunması üçün dünyada kifayət qədər tədbir görülmədiyini göstərir. Ərzağın 95 faizinin torpaqdan gəldiyini nəzərə alsaq, əhalinin artması və torpağın deqradasiyası səbəbindən 2050-ci ildə adambaşına düşən qlobal əkin və məhsuldar sahələrin miqdarının 1960-cı ildəki səviyyənin 1/4-ə bərabər olacağını anlamaq olar.

Aparılan araşdırmalar göstərir ki, torpağın altındakı karbonun miqdarı atmosferdəkindən üç dəfə çoxdur. Bu karbon eroziya və yanlış əkinçilik üsulları nəticəsində atmosferə atılır. Qeyd edək ki, torpaqdakı eroziyadan, təbii resursların vəhşicəsinə istismarından 3,2 milyard insan zərər görüb. Eroziyanın ən çox yayıldığı bölgələr Hindistan, Çin, Mərkəzi Afrikanın şimal hissəsi və Cənubi Amerikadır.

İqlim dəyişikliyi ilə mübarizədə istixana və metan qazlarının artmasına səbəb olan neft və kömür kimi qalıq yanacaqlar yerinə külək, su və günəş enerjisi kimi bərpa olunan enerji mənbələrinə üstünlük verməsi çox əhəmiyyətlidir. Təbiətin qorunması üçün beynəlxalq əməkdaşlıqla yanaşı yerli həll yolları da şərtdir. İnsanlar daha çox yerli olaraq yetişdirilən tərəvəz və meyvələrə üstünlük verməli, iqlimə uyğun olmayan məhsulların yetişdirilməsində maraqlı olmamalıdır. Enerjiyə qənaət etmək, avtomobil əvəzinə velosipedlə getmək, yaşıl dünya naminə bərpaolunmayan resurslardan istifadəni azaltmaq da təbiəti qorumaq deməkdir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un bu il ölkəmizdə keçirilməsi də eyni məqsədi daşıyırdı - yaşıl bir dünya üçün bütün dünya ölkələrinin və bütün insanların həmrəy olması şərtdir. Prezident İlham Əliyev də konfransın ilk günündə öz çıxışında bu məsələ haqqında fikir bildirdi, COP29 beynəlxalq konfransının ekoloji baxımdan daha yaxşı bir dünya üçün əhəmiyyətindən danışdı. O bildirdi ki, Azərbaycan neft-qaz ölkəsi olmasına rəğmən yaşıl dünyanın inkşafı üçün öz dəstəyini göstərəcək və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Prezident vurğuladı ki, yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda enerji siyasətimizin prioritetidir.

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
29 noyabr 2024-cü il

# Tik Tok 18 yaşdan kiçiklərə bu qadağanı gətirdi




***TikTok 18 yaşdan kiçik gənclərə gözlərini süni şəkildə böyütməyi, dodaqlarını dartmağı, dəri tonunu yumşaltmağı və ya dəyişməyi qadağan edəcək. Şirkət bu dəyişiklikləri Dublindəki Avropa qərargahında keçirilən təhlükəsizlik forumunda açıqlayıb. Məhdudiyyətlər üz cizgilərini makiyajın edə bilməyəcəyi şəkildə dəyişdirən "Bold Glamour" kimi filtrlərə şamil ediləcək.***

Buna səbəb uşaqların psixi sağlamlığı ilə bağlı narahatlıqlar olub. Mütəxəssislərin fikrincə, gözəllik filtrləri internetdə mükəmməl görüntüyə alışmış gənclərin, xüsusən də qızların öz real görünüşü haqqında mənfi düşünməsinə səbəb olur. Bəzi gənclər filtrlərdən istifadə etdikdən sonra əsl üzlərinin onlara çirkin göründüyünü bildiriblər.

TikTok həmçinin 13 yaşdan kiçik istifadəçilərin bloklanması sistemini sərtləşdirdiyini açıqlayıb. İlin sonuna kimi şirkət yaş məhdudiyyətlərini pozan insanları aşkar etmək üçün yeni avtomatlaşdırılmış sistemləri sınaqdan keçirməyə başlayacaq.

Moskvada satışa çıxardığı mənzilinə müştəri tapılmayan SSRİ Xalq artisti Sofiya Rotaru, 65 milyon rubl qiyməti olan mənzilini oğlunun adına keçirib. 121 kv metr yaşayış sahəsi olan yeni tikili bir neçə ildir ki, boşdur. Buna səbəb 77 yaşlı S.Rotarunun 2021-ci ildə İtaliyaya köçməsidir. Mənzilin iki lifti və yeraltı dayanacağı var.

Qeyd edək ki, Sofiya Rotaru bir müddət öncə Krımdakı mənzili ilə vidalaşıb.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Kartdan-karta ödəniş niyə qadağandır?

## *AÇIQLANDI*



Pərakəndə ticarət və iaşə obyektlərində ödənişlərin kartdan-karta köçürmə əməliyyatları vasitəsilə həyata keçirilməsi istehlakçıların hüquqlarının pozulmasıdır. Belə hallarda istehlakçılara POS-terminaldan çıxarış və nəzarət-kassa aparatı çeki təqdim olunmur ki, bu da gələcəkdə istehlakçıların öz hüquqlarını tələb etmək imkanını məhdudlaşdırır". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna uyğun olaraq POS-terminalların quraşdırılması, "Elektron ticarət haqqında" Qanuna əsasən isə istehlakçıların elektron ödəniş etmək imkanını təmin etmək vergi ödəyicilərinin birbaşa vəzifələrinə aiddir.

POS-terminal quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmamasına və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə görə təqvim ili ərzində belə hallara 1-ci dəfə yol verildikdə 1 000 manat, 2-ci dəfə yol verildikdə 3 000 manat, üç və daha çox dəfə yol verildikdə isə 6 000 manat maliyyə sanksiyaları tətbiq olunur".

***Ayşən Vəli***



# Yeni ildə 7 gün tətil olacaq

İş və istirahət günlərinin yerləri dəyişdirilib. Bu barədə Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb. Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 30 dekabr və 2025-ci il 3 yanvar iş günləri ilə müvafiq olaraq 2024-cü il 28 və 29 dekabr istirahət günlərinin yerləri dəyişdirilib.

Beləliklə, həftəsonuna düşən 28 və 29 dekabr tarixləri iş günü olacaq, 30, 31 dekabr, 1, 2, 3 yanvar tarixləri isə istirahət günüdür. Yanvarın 4 və 5-i həftəsonuna düşür. Beşgünlük rejimdə işləyənlər üçün bayram tətili ayın 6-dək davam edəcək. Altıgünlük rejimdə işləyənlər üçün isə ayın 4-ü iş günüdür.

## ELAN

Qaradağ rayon Hərbi Komissarlığı tərəfindən 01 fevral 1989-cu ildə Məhərrəmov Şirin Abbas oğluna verilmiş 468309 N-li Əfqanıstan müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Dəm qazı təhlükəsindən necə qorunmaq olar?



Fövqəladə Hallar Nazirliyi dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət edib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, havaların soyuması məişətdə dəm qazı təhlükəsini daha da artırır. Belə ki, istiliyə tələbatın artdığı bu mövsümdə qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına əməl edilməməsi sonda acı nəticələrə səbəb ola bilər. Bu istiqamətdə Fövqəladə Hallar Nazirliyinin apardığı kütləvi maarifləndirmə işlərinə baxmayaraq, təəssüflə qeyd edilməlidir ki, hələ də dəm qazının səbəb olduğu faciəli hadisələr baş verir.

Yuxarıda qeyd olunanları, habelə dəm qazının iysiz olduğunu və hiss edilmədiyini nəzərə alaraq, mümkün fəsadların qarşısının alınması üçün Fövqəladə Hallar Nazirliyi aşağıda göstərilən təhlükəsizlik qaydalarına əməl olunmasının zəruriliyini bir daha xatırladır:

- istismar olunan qaz cihazı saz və standartlara uyğun olmalı;
- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
- hamam otağında ventilyasiya borusu, qapının aşağısında deliklər olmalı;
- tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Yadda saxlamaq lazımdır ki, qaz cihazının olduğu məkandakı insanlarda başağrısı, başgicəllənməsi, ürək bulanması, halsızlıq dəm qazından zəhərlənmənin əsas əlamətləridir.

Dəm qazından zəhərlənmə baş verdikdə dərhal zərərçəkmişi təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır. Təhlükə zamanı 112-yə zəng edin.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
**Tiraj: 2700**